*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (2) 2024*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:10.02.2024*
*Kabul tarihi |Accepted:20.03.2024*
*Yayın tarihi |Published:25.04.2024*
*https://doi.org/10.46868/atdd.2024.*

**Səməd Bayramzadə**

https://orcid.org/ https://orcid.org/0000-0001-6933-7021
*Associate Professor, Director of the South Azerbaijan Branch of the Institute of Oriental Sciences named after Ziya Bünyadov, Azerbaijan National Academy of Sciences, Azerbaijan, samad.bayramzadeh@gmail.com*

**Aytən Rəhimova**

https://orcid.org/ https://orcid.org/0000-0002-5259-5849
*Small scientific worker, Azerbaijan National Academy of Sciences in the name of Ziya Bünyadov, South Azerbaijan Branch of the Institute of Oriental Sciences, Azerbaijan, a.k.rahimova@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Bayramzadə, S., Rəhimova, A. (2024). 1978-79-cu illər İran İnqilabından Sonra Güney Azərbaycan Ziyalıları. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (2), 1323-1341.

# 1978-79-cu illər İran İnqilabından Sonra Güney Azərbaycan Ziyalıları

***Xülasə***

*1978-1979-cu illərdə Pəhləvi şahlıq rejiminə qarşı inqilabi proseslərə qoşulan Güney Azərbaycan ziyalılarının siyasi baxışları sonradan yeni islam rejiminin qurulması ilə hakimiyyətə gəlmiş dini-klerikal dairələrin mövqelərini dəstəkləməklə məhdudlaşmamışdı. Belə ki, İran İslam Respublikasının sərt daxili siyasəti, təqiblər və edamlar, xüsusilə də XX əsrin 80-ci illərin sonlarından etibarən İranda siyasi repressiyaların güclənməsi ilə Güney Azərbaycan ziyalıları mübarizələrini siyasi müstəvidən daha çox milli-mədəni müstəviyə daşımışlar. Ziyalılar məhdud*

BY NC Creative Commons Licence

*şərait və çətinliklərə baxmayaraq, milli düşüncələrini xalqa ədəbiyyat, incəsənət, mədəniyyət yolu ilə çatdırmağa, qorumağa və inkişaf etdirməyə çalışırlar. 1979-cu ildən bu günə İran siyasətində və dini həyatında kifayət qədər böyük nüfuza malik olan Güney Azərbaycanın din xadimləri, siyasi fiqurları ictimai fikirdə ciddi rol oynamağa başlayırlar. Bir çox ziyalı İranda qurulmuş yeni sistemə müxalifliyini qurucu və siyasi mühacirət həyatını seçməklə büruzə vermişlər. Bu məqalədə həmin dövrün siyasi proseslərinin analizi, İran İslam İnqilabında və repressiyaların gücləndiyi şəraitdə Güney Azərbaycan ziyalılarının mübarizəsi, həm siyasi, həm də milli-mədəni müstəvidə tədqiq edilmiş, eyni zamanda siyasi və ictimai təşkilatları araşdırılmışdır.*

***Açar sözlər**: ziyalılar, Güney Azərbaycan, İran, milli hərəkat, inqilab, azadlıq*

## After the Iranian Revolution of 1978-79 Intellectuals of South Azerbaijan

***Abstract***

*The political views of the intellectuals of South Azerbaijan, who participated in the revolutionary processes against the Pahlavi regime in 1978-1979, were not limited to supporting the positions of the religious-scientific circles that came to power with the establishment of the new Islamic regime. Thus, due to the harsh domestic policy of the Islamic Republic of Iran, persecutions and executions, especially with the strengthening of political repression in Iran since the late 80s of the 20th century, the intellectuals of South Azerbaijan carried their struggle further. is at the national-cultural level rather than the political level. Despite the limited conditions and difficulties, intellectuals try to convey, protect and develop their national ideas to the people through literature, art and culture. Since 1979, the religious and political figures of South Azerbaijan, who had a considerable influence on Iranian politics and religious life, began to play a serious role in public opinion. Many intellectuals expressed their opposition to the new system established in Iran by choosing the life of a founder and political refugee. In this article, the analysis of the political processes of that period, the struggle of the intellectuals of South Azerbaijan during the Islamic Revolution in Iran and in the conditions of strengthening repression is examined both at the political and national-cultural level, as well as their political and social organisation.*

***Keywords:** Intellectuals, South Azerbaijan, Iran, National Movement, Revolution, Freedom*

### Giriş

XX əsrin 70-ci illəri Yaxın Şərqin tarixində də gərgin geosiyasi dəyişikliklərlə zəngin bir dövr olmuş və bu dönəmdə, xüsusilə 70-ci illərinin sonunda İranda baş vermiş dəyişikliklər regionun geosiyasi mühitində əhəmiyyətli rol oynamışdır. 1960-70-ci illərin islahatları, eləcə də

neft-qaz və neft-kimya sənayesi sahəsində əldə edilmiş nailiyyətlər nəticəsində kifayət qədər iqtisadi-maliyyə və hərbi qüdrətə nail olmuş Pəhləvi rejimi İranı dünya güclərindən birinə çevirməyə iddialı idi. Həmin illərdə İran dünyanın enerji bazarında qiymətlərə əsaslı dərəcədə təsir göstərmək imkanı belə qazanmışdı. İran, hətta, bir çox Qərb ölkələrində neft qiymətlərinin yüksəldilməsi ucbatından meydana çıxmış enerji böhranının yaranmasına səbəb olan dövlətlərdən birinə çevrilmişdi. Bu da rejimin Qərbdəki müttəfiqlərində onun təhlükəyə çevrilməsi ilə bağlı fikirlərin formalaşmasına gətirib çıxarmışdı. Dünyanın aparıcı güc mərkəzləri isə Yaxın və Orta Şərqdə onların maraqlarına bu və ya digər dərəcədə təsir göstərəcək yeni bir mərkəzin formalaşması ilə barışa bilməzdilər. İranın daxili siyasətində də Məhəmmdərza şah Pəhləvi ilk baxışdan şəriksiz güc sahibi idi. O, özünə müxalif olan qüvvələri susdurmuş kimi görünürdü. Bununla belə, şahın sol siyasi qüvvələrin fəaliyyətini məhdudlaşdırması ABŞ və Avropa ölkələrinin maraqlarına uyğun idi. Siyasi müxalifətin digər qanadları da xeyli dərəcədə zəiflədilmişdi. Bunların müqabilində isə uzun müddət dinin dövlət aparatında güclü olduğu İranda dini-klerikal müxalifətin manevr imkanları artmış, nəticədə onların güclənməsinə səbəb olmuşdu. Həmin dövrün siyasi proseslərinin analizi Güney Azərbaycan ziyalılarının da bütün İrandakı siyasi palitraya uyğun olaraq bölündüyünü göstərir (Bayramzadə, 1991). Güney Azərbaycan ziyalıları arasında həm şah rejiminin, həm sol siyasi qüvvələrin, həm də dini müxalifətin mövqeyini dəstəkləyənlər vardı. Xüsusən, müxalif qüvvələrə yaxınlığı ilə seçilən ziyalıların baxışlarında milli hüquqlar məsələsi əhəmiyyətli yer tuturdu. Pəhləvilərin yürütdükləri pan-iranizm və pan-farsizm siyasəti Güney Azərbaycandan olan ziyalıların xeyli hissəsini mövcud rejimdən narazı salan məqam idi.

## 1.Güney Azərbaycan ziyalıları din və siyasətdə

1978-1979-c il inqilabı və ondan sonrakı dövrdə Güney Azərbaycandan olan bir sıra şəxslər, o cümlədən ziyalılar həm siyasi həyatda, həm də dini sahədə xüsusi yer tutmuşlar. Bir çox hallarda rejimin xarakterinə uyğun olaraq din xadimləri siyasi proseslərin içərisində yer almışlar. Onların bir qismi yeni rejimin və vahid İran ideyasının qatı tərəfdarı olmuş (Seyid Əli Xameneyi, Ayətullah Musəvi Ərdəbili, Seyid Əbdülqasim Xoyi, Sadiq Xalxali), bəziləri dini müxalifətin əsas simalarına çevrilmiş (Kazım Şəriətmədari), bir qismi isə ümumiyyətlə mövcud rejimə və hakimiyyətə qarşı çıxmışlar.

Seyid Əli Xameneyi, Qulamrza Ağazadə, Məhəmməd Əsgəri, Rahman Dadman, Mehdi Bazərgan, Mehdi Əbdüləlizadə, Əli Meşkini, Yəhya Ale Eşaq, Abbas Duzduzani, Hüseyn Kazımpur, İsa Kələntəri, Sadıq Mahsuli, Möhsün Mirəlizadə, Məhəmmədrza Mirtacəddini,

Məhəmmədrza Nemətzadə, Həmid Çitçiyan, Məsud Pezeşkiyan, Mustafa Məhəmməd Nəccar, Pərviz Fəttah, Şahindoxt Mollaverdi kimi Güney Azərbaycandan çıxmış siyasi xadimlər 1979-cu ildən sonrakı dövrdə İran dövlət sisteminə xidmət etmiş, öz bilik və bacarıqlarını islam rejiminin ideoloji əsaslarının güclənməsinə sərf etmiş, bununla da əslində pəhləvilərdən miras qalmış "Vahid İran milləti" nəzəriyyəsini daha geniş miqyasda və sərt bir şəkildə "Vahid İslam ümməti" adı altında həyata keçirmiş və keçirməkdədirlər İslam Respublikasının dini mühitində öz elmi və nüfuzu ilə seçilən Güney Azərbaycan ruhaniləri arasında Ayətullah Musəvi Ərdəbili, Seyid Əbdülqasim Xoyi, Sadiq Xalxalinin adlarını da çəkmək olar (Özdemir, 2020). Sistemdaxili müxalifətdə xüsusi yer tutan Güney azərbaycanlı şəxslər içərisində Kazım Şəriətmədari, Musa Xiyabani, Mirhüseyn Musəvi, Əsgər Parsanın adları xüsusi qeyd edilməlidir. Onlar bir müddət islam rejimi və onun mövcudluğunu təsbit edib qoruyan mövcud konstitutsiya qaydalarına uyğun olaraq rejimə müxalif baxışlarını irəli sürmüşlər. Bu cür ziyalıların fikirlərində və fəaliyyətlərində Güney Azərbaycan və azərbaycanlılardan İran siyasətində yararlanmaq amili olsa da, Güney Azərbaycan məsələsi onlar üçün prioritet təşkil etməmişdir.

Kazım Şəriətmədari şah İranında rejimin ən təhlükəli düşmənlərindən, eyni zamanda da təkcə Güney Azərbaycanın deyil, ümumilikdə bütün İran coğrafiyasının nüfuzlu din xadimlərindən biri sayılırdı. Onu da vurğulamaq lazımdır ki, 1979-cu ilin fevral ayının 18-də Təbriz şəhərində 100 minə yaxın insanın iştirakı ilə başlayan "29 Bəhmən üsyanı" məhz Kazım Şəriətmədarinin çağırışından sonra baş tutmuş (Tağıyeva, Rəhimli ve Bayramzadə, 2000) və faktiki olaraq şah rejiminin əsaslarını sarsıdan hadisə olmuşdur.

İnqilabdan sonra Ayətullah Kazım Şəriətmədari və ona bağlı "İran Müsəlman Xalq Cümhuriyyəti Partiyası" ilə Ruhullah Mustafa Musəvi Xomeyni arasında siyasi rəqabət və ixtilaflar yaranmışdır. Təbii ki, belə bir rəqabət və ixtilaflar İran təmayüllü (irançı) azərbaycanlı ziyalıların bir hissəsini səhnəyə çıxardı. İrançı azərbaycanlı ziyalılar kütləvi səfərbərlik baxımından daha çox gücə malik olsalar da, milli kimlik iddiaları çox az idi və etnik təhdidlərdən əsasən özlərinin siyasi məqsədlərinə çatmaları üçün istifadə edirdilər. Məsələn, Kazım Şəriətmədarinin lideri olduğu "Müsəlman Xalq Partiyası"nın üzvlərinin böyük hissəsini məhz Güney Azərbaycandan olan şəxslərin təşkil etməsinə baxmayaraq, onlar Güney Azərbaycanın istiqlaliyyəti məsələsini xüsusi tələb kimi ortaya qoymurdular. Bu siyasi təşkilatın proqramında vahid İran çərçivəsində etnik azlıqlara muxtar hüquqlar verilməsi nəzərdə tutulurdu. Bundan əlavə partiya İranda böyük vilayətlərin öz parlamentlərinin olması ideyasını dəstəkləmiş və təkcə azərbaycanlılara deyil, İrandakı bütün etnik azlıqlara da mədəni hüquqlar tələb etmişdir (Özdemir, 2020). 1979-cu ilin

dekabrında İran İslam Respublikasının yeni konstitusiyasının qəbulundan sonra bu sənədin müvafiq maddələrinə qarşı çıxan Kazım Şəriətmədari tərəfdarları Təbrizdə üsyan qaldırmışdılar. Üsyançılar demək olar ki, strateji əhəmiyyətli obyektlərin əksəriyyətini ələ keçirmiş və Azərbaycan İslam Cümhuriyyətini elan etmişdilər. Kazım Şəriətmədari yeni dövlətə rəhbərlik etmək üçün Təbrizə dəvət edilsə də, daha çox loyal mövqe tərəfdarı kimi, bu məsələdə qətiyyətsizlik göstərmiş, nəticədə üsyan amansızlıqla yatırılmışdı (Tağıyeva, Rəhimli ve Bayramzadə, 2000). İnqilab günlərində və 80-ci illərin əvvəllərinə qədərki dövrdə İran siyasətində adı tez-tez çəkilən siyasi xadimlərdən biri isə Şeyx Məhəmməd Xiyabaninin nəvəsi Musa Xiyabani olmuşdur. O, 29 Bəhmən üsyanının baş verməsində əhəmiyyətli rol oynamış "Xalq Mücahidləri Təşkilatı"nın ("Sazman-e mocahidin-e xəlq") hərbi siyasi qanadının liderlərindən biri olmuşdur (Tağıyeva, Rəhimli ve Bayramzadə, 2000). İnqilabdan sonra İran parlamentinə (*İslam Şura Məclisi*) 1980-ci ildə keçirilən seçkilərdə Təbriz şəhərindən öz namizədliyini irəli sürsə də, yeni rejim onun qalib gəlməsinə imkan verməmişdir (Abrahamian, 1989). 1980-1982-ci illərdə Xalq Mücahidləri Təşkilatı ilə hakimiyyətdə olan Ayətullah Xomeyni tərəfdarları arasında münasibətlər kəskinləşir. 1981-ci ilin iyun ayının 20-də bu təşkilat rejimi devirmək məqsədi ilə Xomeyniyə qarşı nümayiş təşkil edir. Etirazlarda 50-yə yaxın nümayişçi həlak olur. Bunun cavabında Xalq Mücahidləri Təşkilatı İran İslam Respublikası hökumətinə qarşı müharibə elan etmiş, bir sıra partlayışlar, sui-qəsdlər törətmişdir. 1981-ci ilin iyununda təşkilatın İslam Respublikası Partiyasının qərargahında törətidiyi partlayış nəticəsində 74 partiya rəsmisi və digər partiya üzvləri həlak olmuşdu. Bu da hökumətin təşkilata qarşı kəskin tədbirlər görməsinə səbəb olmuş, nəticədə 1981-ci ilin iyunundan 1982-ci ilin aprelinə qədər təşkilatın təxminən 3500 üzvü rejim tərəfindən öldürülmüşdür. 1982-ci ilin fevral ayının 8-də İranın İnqilab Keşikçiləri Korpusunun (SEPAH) silahlıları Musa Xiyabaninin Tehranın şimal hissəsində yerləşən evinə hücum etmiş, 3 saat ərzində onun yaşadığı evi atəş altında saxlayaraq özünü və həyat yoldaşını qətlə yetirmişlər (Pearson, 2011). Sistemdaxili müxalifətdə sol təmayüllü İslam inqilabçısı kimi ad çıxarmış islahatçı Mirhüseyn Musəvinin fəaliyyəti də Güney Azərbaycan ziyalısı kimi diqqəti çəkir. 2009-cu il prezident seçkilərində islahatçı namizəd kimi müxalifətin liderinə çevrilən Mirhüseyn Musəvi mövcud rejim tərəfindən ağır siyasi təzyiqlərə məruz qalmışdır. Öncə də qeyd edildiyi kimi, Musəvinin siyasi baxışlarında Güney Azərbaycan məsələsi xüsusi yer tutmamış və o siyasi mübarizəsini ümum-İran kontekstində aparmışdır. Heç də təsadüfi deyildir ki, bəzi araşdırmaçılar Mirhüseyn Musəvinin fəaliyyətində

milli ideallara söykənməməsini onun uğursuzluqlarının səbəblərindən biri kimi qeyd edirlər.[1] İslam İnqilabının ikinci onilliyində yeni nəsil irançı Azərbaycan ziyalıları mövcud siyasi-ictimai şəraitin təsiri altında formalamışdı.

Universitetlərdə yaradılmış islami birliklər yeganə məlum siyasi qüvvələr idi. Bu da universitetlərdə adları, bölgələri, şəhərləri ilə tanınan "Azərbaycanlı Tələbələr Dərnəyi" kimi qeyri-rəsmi yerli cəmiyyətlərin yaranmasına səbəb olmuşdu. Ali təhsil sisteminin genişlənməsi də bu işə kömək edirdi. Onlar həm də regionçu siyasi məqsədlərini güdürdülər. Əslində bu cəmiyyətlər (birliklər) irançı azərbaycanlı ziyalıların yeni nəslinin yetişməsi üçün bir baza oldu. Onlar öz içlərilərndə əvvəlki nəsillərdən fərqli olaraq inqilab övladları adlanan dini yönümlü, İran-İraq cəbhəsində döyüş təcrübəsi qazanmış və bəzən hökumətdə yer almış bir nəsil yetişdirdilər. Bu nəsil modernist etnik cərəyanla ("Azərbaycanlı Tələbələr Dərnəyi" və "Varlıq" dərgisi) birlikdə marksistlərin siyasi fəaliyyət boşluğunda regionçu azərbaycanlı maarifçilərin hakim cərəyanına çevrildi.

1997-ci ildə baş verən dəyişikliklər və Seyid Məhəmməd Xatəminin Prezident olaraq iş başına gəlməsi etnik ölçüdə özünəməxsus məna daşıyan vətəndaş cəmiyyəti ideyasının irəli sürülməsinə səbəb oldu. Belə ki, 1997-ci ildə Kürdüstana səfəri zamanı Xatəmi öz nitqində keçmişdə "Kürd xalqının tapdanmış hüquqları"ndan danışdı və bununla da "bütün bölgələrin bərabər hüquqları" anlayışı növbəti dəfə regionçu elitalar arasında müzakirə mövzusuna çevrildi. Bu dövrdə açıq şəkildə vurğulana bilən xüsusiyyətlərdən biri də vətəndaş cəmiyyəti ideyası ilə bağlı azərbaycanlı ziyalıların (*ən azı yeni irançı və modernist etnik ziyalıların*) yekdilliyidir. Başqa bir məsələ də odur ki, hakimiyyət daxilində mövqe və maraqları olan yeni irançılar ölkə səviyyəsində davam edən fraksiyalararası siyasi rəqabətlərdə etnik və regional tələblərdən istifadə etməyə başlamışdılar.

1978-1979-cu illər İran inqilabının gedişi və onun qələbəsindən sonrakı iki il ərzində ölkədə yaranmış nisbi azadlıqlar dönəmində açıq siyasi məkanda müxtəlif qruplar, o cümlədən marksist solçu qruplar və azərbaycanlı millətçi ziyalılardan ibarət etnik qruplar növbəti dəfə azad fəaliyyət üçün yeni imkanlar əldə etdilər. Bu dönəmdə Tudə partiyasının "bütün İran xalqlarının azadlığı", "İranın məzlum xalqlarının öz müqəddəratını təyinetmə və öz muxtariyyətini əldəetmə hüququ" kimi ideyalarından ruhlanan azərbaycanlı solçu ziyalılar "Bütöv Azərbaycan" məsələsini

[1] Bax: Ələkbərli, F. "Molla"-Ariyançı İran dövrü və Güney Azərbaycan Milli Hərəkatı - II Yazı: 17 avqust, 2021. (https://moderator.az/siyaset/390112/molla-ariyanci-iran-dvru-ve-guney).

vurğulamaqda davam edirdilər. Lakin 1983-cü ildən sonra Tudə partiyası qadağan edildi və eyni zamanda İran-İraq müharibəsinin ardınca Sovet İttifaqı və bütün millətçi marksistlər uğursuzluqla üzləşdilər. Bunun ardınca da onların böyük əksəriyyəti öz mövqelərini gizlətmək və ya ondan geri çəkilmək məcburiyyətində qaldılar. Onların bir çoxu iki Azərbaycanın birləşməsi və bütövləşməsi üçün siyasi mübarizədən çəkilərək maariflənmə yoluna üz tutdular.

Bir qrup Güney Azərbaycan ziyalısı isə İranda qurulmuş yeni sistemə müxalifliyini qurucu və siyasi mühacirət həyatını seçməklə büruzə verdilər. Onların böyük əksəriyyətinin ictimai və siyasi baxışlarında Güney Azərbaycan məsələsi, milli hüquqlar uğrunda mübarizə prioritet təşkil etmişdir. İslam rejiminə tamamilə müxalif olan şəxslər sırasında Rza Müridi, Mina Əhədi, Mahmudəli Cöhrəqanlı, Məhəmməd Tağı Zehtabi, Firuz Dilənçi, Əhməd Obalı, Abbas Lisani və digərlərinin adlarını qeyd etmək olar.

Aparılan təhlillər göstərir ki, 1991-ci ildən sonrakı dövrdə, eləcə də müasir mərhələdə Güney Azərbaycanın istiqlalı üçün mübarizəyə qoşulmuş ziyalılar arasında da vətənlərinin siyasi gələcəyi ilə bağlı bir neçə istiqamətdə fikir ayrılıqları mövcuddur. Onların bir qismi xarici ölkələrdə, xüsusən ABŞ və Avropa ölkələrində mühacirət həyatını davam etdirərək hesab edirlər ki, baş verən geosiyasi proseslər nəticəsində münasib şərait yaranacaq, İran dağılacaq və Güney Azərbaycan da istiqlalına qovuşacaqdır. Siyasi sistemin forması və modeli barədə isə ondan sonra düşünmək olar. Digər bir qisim hesab edir ki, siyasi şərtlər nə olursa olsun, ölkənin daxilində qalıb mübarizə aparmaq, Güney Azərbaycan əhalisini rejimin təbliğatçıları ilə baş-başa buraxmamaq lazımdır. Onların düşüncəsinə görə rəsmi təbliğatın təsiri altında olan əhalinin böyük əksəriyyətini milli mübarizə cəbhəsinə cəlb etmək mümkün olmur.

Güney Azərbaycanın siyasi sisteminin gələcəyi barədə azərbaycanlı ziyalılar arasında üç yanaşmanı görmək mümkündür. Birinci yanaşma tərəfdarları hesab edirlər ki, İranda rejim dəyişməli, bu coğrafiyada yaşayan digər xalqlarla bərabər, Güney Azərbaycanda yaşayan azərbaycanlıların hüquq və mənafeləri ilə bağlı məsələlər federal dövlət quruluşu çərçivəsində həll edilməlidir. Onların siyasi mübarizədən maksimum gözləntiləri demokratikləşmiş İran çərçivəsində Güney Azərbaycan üçün muxtariyyət məsələsidir. İkinci bir qrup hesab edir ki, Güney Azərbaycan müstəqilliyini əldə etməli və ya İrandan ayrıldıqdan sonra artıq müstəqil dövlətçiliyə malik olan Şimali Azərbaycana – Azərbaycan Respublikasına birləşməli və Vahid Azərbaycan Cümhuriyyəti yaranmalıdır.

Üçüncü qrup isə hesab edir ki, Güney Azərbaycan özünün hürriyyətini əldə etməli və müstəqil bir dövlət kimi mövcud olmalıdır. Onların fikrincə, iki Azərbaycan Cümhuriyyətinin

gələcəkdə hansı formada birgə fəaliyyət göstərməsi ilə bağlı məsələ isə müzakirə mövzusudur. Bu fikrin daşıyıcıları hesab edirlər ki, 40 milyon əhalisi olan Güney Azərbaycanın 8-10 milyon əhalisi olan Quzey Azərbaycanın – Azərbaycan Respublikasının bir hissəsinə çevrilməsi inandırıcı görünmür. Bütün hallarda milli ziyalıların hər üç kəsimi Güney Azərbaycanın və orada yaşayan azərbaycanlıların öz siyasi hüquqları uğrunda mübarizə aparmasının tərəfdarı kimi çıxış edirlər. Nisbətən loyal mövqeli milli ziyalılar Güney Azərbaycan üçün federalizm çərçivəsində muxtariyyət istəyirlər, qatı-milliyətçi ziyalıların isə tələbləri tamamilə siyasi müstəqilliyin əldə edilməsidir.

İnqilabdan sonrakı dövrdə Güney Azərbaycanın azadlığı uğrunda mübarizə aparmış milli ziyalılardan biri də Məhəmməd Tağı Zehtabi olmuşdur. 1924-cü ildə Şəbüstərdə anadan olmuş M. T. Zehtabi XX yüzilliyin 40-cı illərində demokratik hərəkatın fəal iştirakçılarından biri hesab olunur. Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə Azərbaycan Demokratik Firqəsinin Azərbaycan Milli Hökumətini elan etdiyi dövrdə bu siyasi təşkilatın gənclər şöbəsinin üzvü olmuşdur. Həmin dövrdə o, həm də Təbrizdəki Azərbaycan Universitetində dünya ədəbiyyatından mühazirələr oxumuşdur. M. T. Zehtabi təhsilini davam etdirmək və Pəhləvi rejiminin siyasi təqiblərindən xilas olmaq məqsədi ilə 1948-ci ildə Şimali Azərbaycana (Azərbaycan SSR-ə) köçmüş, lakin Sovet İttifaqına qanunsuz daxil olduğu üçün Sibirdə həbs cəzasına məhkum edilmişdi. Stalinin ölümündən bir müddət sonra bəraət qazanmış, Sibirdən Tacikistanın paytaxtı Düşənbəyə göndərilmişdi.

İslam inqilabının başlanması ilə Məhəmməd Tağı Zehtabi İrana qayıtmışdı. O, ifrat solçu və türkçü fəaliyyəti və meyllərinə görə bir müddət sonra həbs edilmişdi. Onun yazdığı "Ulduz xan" və "İran türklərinin qədim tarixi" adlı əsərləri yeni rejim tərəfindən də qıcıqla qarşılanmışdı. M. T. Zehtabi təkcə dilçi kimi deyil, tarixçi, etnoqraf kimi indiki İran ərazisində yaşayan türklərin etnik mənsubiyyətini və dilini saxtalaşdıran fars şovinizminə qarşı çıxaraq sübut edir ki, farsların on qəbiləsi ilk dəfə Miladdan 900 il əvvəl İran yaylasına gəlmiş, Elam şahzadələrinin hakimiyyəti altında olan Kirman əyalətində yurd salıb yaşamışlar. Lakin bu ərazilərdə türklərin 3500 il əvvəl məskunlaşdığı qeyd olunur. Dəqiq faktlarla müqayisələr zəminində əsl həqiqəti üzə çıxaran alim bu gün İran ərazisində Azərbaycan dilinin milli mənsubiyyətini şübhə altında saxlayan saxta alimlərə ciddi cavab vermişdir.[2] (https://respublika-news.az/news/1675406629-mehemmedtagi). Zehtabi yazırdı ki, İranda – Güney Azərbaycanda yaşayan türklərin 8000 illik tarixi vardır. O,

[2] Məhəmmədtağı Zehtabi (Kirişçi) və onun Iran türklərinin əski tarixi kitabı: Respublika qəzeti, -02 mart, 2023. https://respublika-news.az/news/1675406629-mehemmedtagi-zehtabi-kirisci-ve-onun-iran-turklerinin-eski-tarixi).

elamlılardan, şumerlərdən tutmuş Urartuya, Midiyaya, Hurrilərə qədər olan tayfa, dövlət qurumu və dövlətlərin qurucularının hamısının türklər və ya türklərlə qohum qruplar olduğunu iddia edirdi. Məhz bu cür araşdırmalarına görə ona qarşı təzyiqlər başlamışdı.

Milli ruhun dirçəlişi istiqamətində yazdığı əsərlərinə görə həbs edilən M. T. Zehtabi bir müddət həbsdə qaldıqdan sonra 1981-ci ildə ölkəni tərk etmişdi. Zehtabi "İki Azərbaycanın birliyi" ideyasının əsas daşıyıcılarından biri idi. O, eyni zamanda İranda Azərbaycan əhalisinin dil hüquqları uğrunda mübarizə aparmışdır. Doktor M. T. Zehtabi 1998-ci ilin may ayında İran İslam Respublikasının prezidentinə ünvanlanmış məktubu imzalayan və İran hakimiyyətini Azərbaycan dilinə daha müsbət münasibət göstərməyə çağıran Güney Azərbaycandan olan ziyalılar arasında olmuşdur. M. T. Zehtabi 1999-cu ildə Təbriz şəhərində dünyasını dəyişmişdir. Onun ölümü barədə bir sıra fərqli iddialar mövcuddur. Belə ki, İran Milli Müqavimət Şurası 1999-cu ilin may ayının 27-də yaydığı məlumatda bildirirdi ki, Zehtabi İran hökuməti tərəfindən 1995-ci ildən bəri həyata keçirilən siyasi motivli qətllərin növbəti qurbanı olmuşdur. "Tehran Times" qəzetinin 27 yanvar 1999-cu il tarixli sayında dərc olunmuş bir xəbərdə Zehtabi adlı şəxsin ölümünə dair məlumat aşağıdakı kimi qeyd edilmişdi: *"Xordadın əvvəllərində Zehtabi adlı bir şəxsin Təbrizdə müəmmalı şəraitdə öldüyü iddia edilmişdi. Lakin sonradan bu xəbər təkzib olundu. Zehtabinin xəstəlikdən vəfat etdiyi açıqlanmışdır".*[3]

Güney Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizə aparan siyasilər arasında Firuz Dilənçinin də adı qeyd edilməlidir. 1965-ci ildə Tehranda azərbaycanlı ailəsində dünyaya göz açmış Firuz Dilənçi əsası 1991-ci ildə qoyulmuş Güney Azərbaycan Milli Azadlıq Hərəkatının (CAMAH) lideri kimi Güney Azərbaycanın müstəqilliyi və İrandan ayrılması ideyasını irəli sürmüş, bu ideyanın dünya siyasi arenasına çatdırılması üçün fəaliyyət göstərmişdir. O, 1999-cu ilə qədər CAMAH-a sədrlik etmişdir. 1999-cu ildə Təbrizdə milli hərəkatın dalğaları genişləndikdən sonra Firuz Dilənçi CAMAH sədrinin birinci müavini və eyni zamanda Bakı Komitəsinin sədri vəzifəsinə təyin edilmişdir. Sonralar Kanadaya mühacirətə gedən Firuz Dilənçi Vankuver şəhərində yaşamış, 2008-ci ilin mayında ona və ailə üzvlərinə Kanada hökuməti tərəfindən vətəndaşlıq verilmişdir.

Güney Azərbaycandan olan milli ziyalılar sırasında Ərdəbidə dünyaya göz açıb böyümüş Abbas Lisanin də fəaliyyətini xüsusi qeyd etmək lazımdır. O, həm siyasi, həm də ədəbi fəaliyyətləri

---

[3] Iran: The death of Dr. Mohammad Taghi (Taqi) Zehtabi in December 1998 and the situation of other leaders of the Azerbaijan (Azeri) national movement: Immigration and Refugee Board of Canada, -November 28, -2000. (https://www.refworld.org/docid/3df4be444.html).

ilə bütün İranda tanınır. A. Lisani 1997-ci ildən bəri milli-mədəni və siyasi hüquqlar uğrunda mübarizəsi səbəbindən dəfələrlə həbs olunmuşdur. Yalnız 2006-cı ilin 6 ayı ərzində 4 dəfə mühakimə olunmuş, 30 ay həbs, 50 şallaq və 3 il sürgün cəzası almışdır. Buna səbəb isə onun 2005-ci ildə Babək qalasındakı qurultayda, Məşrutə inqilabının ildönümündə, Təbrizdə Bağır xanın məqbərəsində keçirilən mərasimdə və 2006-cı ildə Milli üsyan günündə iştirakı və alovlu çıxışları olmuşdur.[4] A. Lisani sonrakı illərdə də dəfələrlə həbs olunmuş, zülmlərə məruz qalmış, sürgünə göndərilmişdir. Müxtəlif beynəlxalq təşkilatlar, partiyalar və fəallar onun həbsinə qarşı bəyanatlarla çıxış etmişlər. A. Lisani 2007-ci ildən Beynəlxalq Amnistiya Təşkilatı tərəfindən vicdan məhbusu elan edilmişdir. 2023-cü ilin fevralında Ərdəbil həbsxanasından azad edilərək Yəzd şəhərinə sürgün edilməsi barədə qərar qəbul edilmiş, lakin o, günahsız olduğunu bəyan edərək sürgün hökmünə əməl etmədən Ərdəbil şəhərinə qayıtmışdır. Abbas Lisaninin siyasi fəaliyyətində Güney azərbaycanlıların hüquq və azadlıqları, milli fikrin inkişafı, Urmiya gölünün qurumasına münasibətdə İran dövlətinin biganəliyinə qarşı etirazlar xüsusi yer tutur. Abbas Lisaniyə qarşı irəli sürülən ittihamların əksəriyyəti onun "rejim əleyhinə təbliğat" aparması və "xaricdə yaşayan separatçı qruplar”la əməkdaşlığıdır. [5]

**2.İnqilabdan sonra mühacirət həyatı yaşayan Azərbaycan ziyalıları**

1978-1979-cu illər İran inqilabından sonrakı dövrdə Güney Azərbaycandan olan bir sıra ziyalılar rejimin sərt basqıları ilə barışmayaraq, eyni zamanda milli və demokratik düşüncənin məhdudlaşdırılmasını qəbul etməyərək xarici ölkələrə üz tutmuş, milli və siyasi mühacirlərə çevrilmişlər. İnqilabın mühacirə çevirdiyi şəxslərin böyük əksəriyyəti məhz siyasi proseslərdə fəal iştirak edən şəxslər olmuşdur. İrandakı mövcud islam rejimi eyni zamanda bir sıra mətbuat nümayəndələrini, ədəbiyyat və mədəniyyət xadimlərini də mühacirə çevirmişdir.

Hazırki dövrdə belə şəxslər içərisində ən fəallarından biri GünAz Televiziyasının qurucusu, İrandakı rejimə qarşı siyasi baxışına və fəaliyyətinə görə təzyiqlərə məruz qalmış və bu səbəbdən İrandan Türkiyəyə, oradan Avropaya və daha sonra ABŞ-a mühacirət etmiş Əhməd Obalıdır. Son illərdə onun fəaliyyəti daha çox Azərbaycan Respublikası ilə bağlı olmuşdur. O, hələ 1978-1979-cu illərdə Pəhləvi şahlıq rejiminə qarşı etirazların fəal iştirakçısı olmuşdur. Lakin İslam Respublikasının qurulmasından sonra bu rejimin milli hüquqları məhdudlaşdırdığını görən Ə. Obalı əvvəlcə Türkiyəyə, daha sonra ABŞ-a mühacirət etmişdir. O, 1998-ci ildə Dünya

---

[4] Azərbaycanlıların kütləvi həbsi başlayıb: Qafqazinfo, 2011. (https://qafqazinfo.az/news/detail/azerbaycanlilarin)

[5] Quluncu, Ə. Ərdəbil məhkəməsi Abbas Lisanini “sekular rejim” təbliğatında günahlandırır: Voice of America, 17 Aprel,2015.(https://web.archive.org/web/20210420062925/https://www.amerikaninsesi.org/a/erdebil-mehkemesi).

Azərbaycanlıları Konqresinin II qurultayının təşkilatçılarından biri, toplantının idarə heyətinin üzvü olmuşdur. Əhməd Obalı Güney Azərbaycanla bağlı məsələlərə dünya ictimaiyyətinin diqqətinin cəlb edilməsi üçün BMT-nin İnsan Hüquqları qrupları ilə fəal əməkdaşlıq etmiş, bundan əlavə 2004-cü ildə GünAz Tv-ni yaratmışdır. 2007-ci ildə kanalın Azərbaycan bürosu fəaliyyət göstərməyə başlamış, tədricən televiziyanın dünyanın ayrı-ayrı ölkələrindəki regional bürolarının sayı artmışdır. 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsindən sonra İranın dekonstruktiv addımları və Ermənistana verdiyi dəstək səbəbindən Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında münasibətlər gərginləşərkən Əhməd Obalı çox fəal şəkildə Azərbaycan Respublikasının mövqeyinin müdafiəsinə çalışmışdır. O, həmin dövrdə Güney Azərbaycan məsələsinin İran cəmiyyətində yenidən canlanmasında mühüm rol oynamışdır.[6]

Belə mühacir ziyalılardan biri də Qulamhüseyn Səididir. Vaxtilə İran Yazıçılar Cəmiyyətinin yaradılmasında yaxından iştirak etmiş Qulamhüseyn Səidi İranda şah rejiminə qarşı mübarizə başlananda onun tərəfdarlarından idi. Lakin İslam İnqilabının qələbəsindən sonra yeni rejimlə barışa bilməyən Səidi Fransaya köç etmiş, bir sıra məşhur əsərlərini də məhz Parisdə yazmışdır. Q.Səidinin pantomima üslubunda qələmə aldığı pyesləri də ciddi marağa səbəb olmaqdadır. Səhnələşdirilən bu əsərlər ölkənin böyük şəhərlərinin teatrlarında oynanılmışdır. O, şah rejiminin ölkədəki xalqlara tutduğu divanı pantomima vasitəsilə verməyə çalışmışdır. Müəllif sonralar yazırdı ki, əhalisinin əksəriyyəti ana dilindən məhrum olan xalqın danışığı bir növ pantomima oyununa bənzəyir (Məmmədli, 2015). Onun bəzi əsərlərdində avtobioqrafik nüanslar mövcuddur. Müəllifin bu qəbildən olan “Otello qəribə məmləkətdə”, “Nurlu qəlblər”, “Doktor Əkbər” və “Renessans” kimi əsərləri daha məşhurdur. Yazıçının sağlığında qələmə aldığı “Ölüm yeri”, “Sınıqçı” adlı əsərləri onun 1985-ci ildə vəfatı üzündən tamamlanmamış qaldı.

Güney Azərbaycandan olan digər mühacir ziyalılardan biri də roman yazıçısı, ədəbi tənqidçi və şair Rza Bərahənidir. 1935-ci ildə Təbrizdə doğulan R.Bərahəni hələ Azərbaycan Milli Hökuməti dövründə təhsilini Azərbaycan dilində almışdır. Sonradan Azərbaycan türkcəsində təhsil qadağan edildiyi üçün o, təhsilini farsca davam etdirmək məcburiyyətində qalmışdır. Hələ məktəb illərindən ana dilində - Azərbaycan türkcəsində yazmaq uğrunda mübarizə aparan Rza Bərahəni Azərbaycan Milli Hökumətinin süqutundan sonra baş verən hadisələri dəhşətlə xatılayır və yazırdı: “Onlar bizi türk dilində yazılmış dərslikləri şəhrdari (*bələdiyyə*) meydanına toplayıb və onları

[6] Əhməd Obalı: İran Ermənistanın məğlubiyyətini həzm edə bilmir. APA, 18 aprel, 2023. (https://apa.az/guney-azerbaycan/ehmed-obali-iran-ermenistanin).

yandırmağa məcbur etdilər. Kitabların alovları bizim başımız üstündə dar ağacından asılmış kişilərin ayaqlarına qədər qalxırdı”.[7]

Elə bütün bu məqamlar da ziyalının gələcək həyatına və siyasi baxışlarına ciddi təsir göstərmişdir. O, 1965-1983-cü illərdə Tehran Universitetində işləmiş, siyasi baxışlarına görə həm Pəhləvi rejimi, həm də İslam İnqilabından sonrakı dövrdə təqiblərə məruz qalmış, dəfələrlə həbs edilmişdir. R.Bərahəninin mühacirət həyatı və fəaliyyəti 1996-cı ildə Kanadaya köçməsindən və burada məskunlaşmasından sonra başlamışdır.

### 3.İnqilabdan sonrakı dövrdə Güney Azərbaycan ziyalılarının milli dəyərlər uğrunda mübarizəsi və qurulan təşkilatlar

1978-1979-cu illərdə İrandakı inqilabi proseslərdə iştirak edən Azərbaycan ziyalıları bütün ölkə üzrə yaradılmış bir sıra təşkilatlara, eləcə də Güney Azərbaycan ziyalılarının təşəbbüsü ilə yaradılmış yerli təşkilatların işinə fəal şəkildə qoşulurdular. Belə təşkilatlar sırasında Müsəlman Xalq Partiyası, Xalq Mücahidləri Təşkilatı, İran Xalqının Fədai Çerikləri Təşkilatı, İran Xalq Partiyasının Azərbaycan Əyalət Təşkilatı və Azərbaycan Demokratik Firqəsinin adlarını çəkmək olar. Qeyd etmək lazımdır ki, XX əsrin 80-ci illərinin əvvəllərində bu təşkilatların əksəriyyəti qanundan kənar elan edilmişdi. İranın yeni hakimiyyəti onlara qarşı siyasi təzyiq və repressiyaları gücləndirmişdi. Bundan sonrakı dövrdə Azərbaycan ziyalıları bir sıra ədəbi və mədəni təşkilatlar ətrafında toplaşmağa başlamışlar. Təbriz Şairlər və Yazıçılar Cəmiyyəti, Müstəqil Azərbaycan Mədəniyyət Ocağı, Tehran Azərbaycan Yazıçıları və Şairləri Cəmiyyəti kimi təşkilatlar bir müddət ziyalıların toplaşdığı, milli problemləri, Güney Azərbaycanın mədəniyyəti ilə bağlı məsələləri müzakirə edə biləcəkləri platformalar olmuşdur. Güney Azərbaycan ziyalılarının fəaliyyətlərini təhlil edərkən aydın olur ki, onların bir qisminin mübarizəsinin əsas qayəsini milli kimliyin və dəyərlərin qorunub saxlanılması təşkil etmişdir. XX əsrin 90-cı illərindən etibarən rejim tərəfindən milli azlıqlara və qeyri fars millətlərə münasibətdə təzyiqlərin artması fonunda Güney Azərbaycanda siyasi fikir yenidən yüksəlmiş, nəticədə onlarla Güney Azərbaycan ziyalısı milli və siyasi mühacirlərə çevrilmişdir.

XX əsrin 90-cı illərindən sonrakı dövrdə Güney Azərbaycanda İran hakimiyyəti tərəfindən azərbaycanlıların hüquqlarının məhdudlaşdırılması siyasəti açıq müstəviyə keçmişdir. Bu baxımdan Hüseyn Feyzullahi, Həmid Arəş Azad, Rəsul Kolahi kimi bir sıra ziyalılar mətbuatda və

[7] İranda türk dilində kitabların yandırılmasının 67-ci ildönümü qeyd edilib:DAK, 2023. (http://www.dakaz.org/index.php?haber_id=1349).

ictimai həyatda milli dəyərlərin qorunması uğrunda mübarizə aparmışlar. İran hakimiyyəti müstəqil Azərbaycan Respublikanın güclənməsini həzm edə bilmədiyi kimi, həmçinin onun Güney azərbaycanlıların milli hərəkatına təsirinin güclənməsindən də narahat olmuş və bütün gücü ilə bu yaxınlaşmanın qarşısını almağa çalışmışdır. Ona görə də İranda Azərbaycan məsələsi, azərbaycanlı problemi nəinki zəifləmədi, əksinə, daha da mürəkkəbləşdi. Bu, Güney azərbaycanlılardan həm ölkə daxilində mövcud siyasi sistem çərçivəsində, həm də regional və qlobal səviyyədə daha qətiyyətli və mütəşəkkil fəaliyyət tələb edirdi. Bütün təzyiqlərə rəğmən, Güney Azərbaycanda qalan, eləcə də Azərbaycan Respublikası, Türkiyə, ABŞ, Kanada başda olmaqla ən müxtəlif ölkələrə səpələnən Güney Azərbaycan ziyalıları zaman-zaman fəaliyyətlərini əlaqələndirməyə və təşkilatlanmağa ehtiyac duymuşlar. Bu kontekstdə Güney Azərbaycan ziyalılarının iştirakı ilə bir neçə təşkilat qurulmuşdur. Həmin təşkilatlar sırasında aşağıdakıları qeyd etmək olar.

### 3.1.Azərbaycan Milli Dirəniş (Müqavimət) Təşkilatı (AMDT)

Bu siyasi təşkilat 2006-cı ilin mart ayının 19-da yaradılmışdır və Güney Azərbaycanda fars şovinizminə qarşı dinc və gizli mübarizə aparır. Azərbaycan Milli Dirəniş (Müqavimət) Təşkilatı azərbaycanlı əhalinin azadlığı, İranda irqi və milli ayrıseçkiliyin aradan qaldırılması uğrunda çalışır. Onun əsas tələblərindən biri isə Güney Azərbaycan əhalisinin öz müqəddəratını təyin etmək hüququnun tanınmasıdır. AMDT öz bəyannaməsində Güney Azərbaycanın müstəqilliyini, Quzey Azərbaycanla tarixi Azərbaycan torpaqlarının birləşməsini qarşısına məqsəd qoyduğunu elan etmişdir.

Güney Azərbaycan ziyalılarının yaratdıqları digər bir təşkilat isə Cənubi Azərbaycan Milli Azadlıq Hərəkatıdır (CAMAH). Bu təşkilat 1991-ci ildə Firuz Dilənçinin rəhbərliyi altında bir qrup siyasətçi və ziyalı tərəfindən təsis edilmişdir. İranın parçalanması, Müstəqil Güney Azərbaycan Türk Dövlətinin qurulması və son nəticədə vahid Azərbaycanın yaradılması təşkilatın ən yüksək və son hədəfidir. 1999-cu ildə Təbrizdə milli hərəkatın güclənməsi ilə Mahmudəli Çöhrəqani CAMAH-ın rəhbəri seçilmiş, lakin 2002-ci ildə təşkilat daxilində yaranmış fikir ayrılıqları səbəbindən rəhbərlikdən uzaqlaşdırılmışdır. Bundan sonra Çöhrəqani bir qrup şəxslə 2002-ci ilin noyabr ayının 13-də Güney Azərbaycan Milli Oyanış Hərəkatını (GAMOH) təsis etmişdir. Elə həmin dövrdə də o, İrandan sürgün edilmişdi. GAMOH da əvvəlki siyasi hərəkatlar kimi Güney Azərbaycan türklərinin siyasi və mədəni hüquqları uğrunda mübarizə aparır. İlk mərhələ üçün onun başlıca tələblərindən biri ana dilində təhsil məsələsi ilə bağlı olmuşdur. Təşkilat ana dilində təhsil

hüququnun inkar edilməsini İrandakı rejimin türk/Azərbaycan əhalisinə qarşı sistemli assimilyasiya cəhdi kimi qiymətləndirmişdir.[8]

1997-ci ildə ABŞ-da qeydiyyatdan keçmiş DAK (Dünya Azərbaycanlıları Konqresi) ilkin olaraq xaricdə yaşayan və diasporu təşkil edən azərbaycanlılar arasında əlaqələrin və münasibətlərin intensivləşdirilməsini, onların müxtəlif səviyyəli və xarakterli problemlərinin həllinə töhfə verməyi qarşısına məqsəd qoymuşdur. Amma sonralar Konqresin nizamnaməsində deyildiyi kimi, azərbaycanlıların milli və vətəndaş hüquqlarını qorumaq istəyi daha da gücləndi.[9]

"Günəş" partiyası İran Konstitusiyasında nəzərdə tutulmuş regional siyasi təşkilat yaratmaq üçün ilk cəhdlərdən biridir. 2000-ci ildə Güney Azərbaycanda qanuni qeydiyyata alınsa da, mərkəzi orqanlar Güney Azərbaycanda regional siyasi partiyanın yaranmasından ehtiyat etdikləri üçün, onun faktiki fəaliyyətinə mane olmasalar da, onu qeydiyyatdan keçirməyə də hazır deyildilər. Bu hal 2005-ci ilə, İran prezidenti islahatçı S.M.Xatəminin ikinci dövr hakimiyyətinin sonuna qədər davam etdi. Neo-mühafizəkar M.Əhmədinejadın prezidentliyə başlaması ilə partiya öz fəaliyyətini dayandırdı.[10]

"21 Azər" adlı digər bir təşkilat isə Güney Azərbaycanda Milli Hökumətin təşkil olunduğu günün (*12 dekabr 1945-ci il*) şərəfinə adlandırınmaqla 2001-ci ildə fəaliyyətə başlamışdı. Təşkilat 2004-cü ildə öz fəaliyyət proqramını qəbul edərək əsas məqsədinin 1945-1946-cı illərdə Güney Azərbaycandakı milli-demokratik hərəkat nəticəsində yaradılmış Azərbaycan Milli Hökumətinin bərpası olduğunu bəyan etmişdi.[11]

Başqa bir təşkilat Azərbaycan Milli Cəbhəsi (AMC) 21 mart 2003-cü ildə 12 bənddən ibarət proqramını yayaraq, Güney Azərbaycanın tarixi ərazilərində milli strukturların (siyasi quruluş, parlament, icra hakimiyyəti, məhkəmələr) yaradılmasının, Azərbaycan xalqının ana/etnik dilinin, tarixinin, mədəniyyətinin qorunub saxlanılmasının zərurətini ifadə etmişdir.[12]

2003-cü ildə yaradılan Güney Azərbaycan İstiqlal Partiyası (GAİP) isə öz nizamnaməsində (05.12.2004) "Köləlikdən yeganə çıxış yolu İranda yaşayan xalqların tam

---

[8]İran'daki Azerbaycan Türklerinin protestoları, Timetürk, 2015. (https://www.timeturk.com/iran-dakiazerbaycan).
[9] Dünya Azərbaycanlıları Konqresinin Nizamnaməsi (http://www.dakaz.org/141-Nizamname.html; Gülkaç, 2019).
[10] Natsional'naya vetv' vlasti (Azerbaydzhan) chast' pervaya, Politicheskoye soznaniye v Yuzhnom Azerbaydzhane (http://atc.az/index.php?newsid).
[11]Natsional'naya vetv' vlasti (Azerbaydzhan) chast' pervaya....(http://atc.az/index.php?newsid).
[12] Azərbaycan Milli Cəbhəsinin Əsasnaməsi (AMC) (http://aznf.org/onewebmedia/esasname.pdf; Gülkaç, 2019).

müstəqilliyidir" ifadəsini əsas şüar kimi qəbul edərək tam müstəqillik və Güney Azərbaycan Demokratik Respublikasının yaradılması uğrunda mübarizə apardığını elan etmişdir.[13]

Güney Azərbaycan milli fəalları və ziyalılarının "Birlik" təşəbbüs qrupu ətrafında toplaşaraq 2 illik fəaliyyətləri nəticəsində 2007-ci ilin əvvəlində Güney Azərbaycan Milli Birlik Şurası (GAMBŞ) təşkilatı yaradılmışdır. Şuranın Proqram layihəsində əsas məqsədinin "millətlərin öz müqəddəratını təyinetmə hüququ"nun həyata keçirilməsi olub, ancaq qurumun Nizamnaməsinin qəbul edilib-edilmədiyi məlum deyil. Təşkilatın internet saytı isə 2014-cü ilə qədər mövcud olub.[14] Azərbaycan Öyrənci Hərəkatı (AZÖH) Azərbaycan milli ziyalılarının yaratdıqları təşkilatlar sırasındadır. Vurğulamaq lazımdır ki, AZÖH haqqında məlumatda onun məqsədi ilə bağlı geniş bilgi verilmir. Milli hərəkat tarixində ilk dəfə olaraq bu təşkilatın bir qrup üzvünün siyasi fəaliyyət ittihamı ilə mühakimə olunduğu vurğulanır. Belə ki, 2008-ci ilin yayında təşkilatın 9 üzvü həbs edilib, onlardan 6-sı 3 il müddətinə azadlıqdan məhrum edilib. Hazırda hərəkatın bir neçə saytı fəaliyyət göstərir.[15] 2005-ci il mayın 28-30-da təsis edilən Azərbaycan Federal-Demokrat Hərəkatı (AFDH) İran azərbaycanlılarının federativ dövlətini yaratmaq məqsədi daşıyır. Belə ki, təşkilat tərəfdarları İranda demokratiyanın hökm sürəcəyinə və Federativ Respublika yaranacağına şübhə etmirlər.[16] Güney Azərbaycan Konqresi (QAK) 2006-cı ildə yaradılan müstəqil ictimai təşkilatdır və proqramında Güney azərbaycanlıların milli və vətəndaş hüquqlarının, eləcə də, öz müqəddəratını təyinetmə hüququnun qorunması vəzifəsi qoyulub.[17] Hazırda da fəaliyyət göstərən Güney Azərbaycan Demokrat Partiyası (GADP) 2013-cü ilin əvvəlində qəbul edilmiş proqramına əsasən xalqın öz müqəddəratını təyin etməsinin, müasir dünyəvi, milli, demokratik dövlətin qurulmasının tərəfdarıdır.[18] Güney Azərbaycanın milli mənafeyi uğrunda mübarizə aparan Güney Azərbaycan Milli Azadlıq Cəbhəsi (GAMAC) öz nizamnaməsində "bütün milli qüvvələrin iş birliyini təşkilat etmək və reallaşdırmaq üçün yarandığını" qeyd etmişdir. 24-25 may 2014-cü il tarixlərində eyni vaxtda Almaniya, Türkiyə və Azərbaycan Respublikalarında partiyanın III qurultayı keçirilmişdir.[19] 2011-ci ildən fəaliyyət

---

[13] Güney Azərbaycan İstiqlal Partiyası (GAİP), 2003. ( http://gaip.biz/index.php/81-x-b-rl-r/83-2013-05-26-15-26).01; Gülkaç, 2019).
[14]Güney Azərbaycan Milli Birlik Şurasının geçici Əsasnaməsi (http://www.millishura.com/images/pdf/ms).
[15] Azərbaycan Öyrənci Hərəkatı-AZÖH (http://www.azoh.net).
[16]Azərbaycan Federal-Demokrat Hərəkatı'nın Plat..(http://www.achiq.org/herekat3/platform%20turkce%20L.htm; Gülkaç, 2019).
[17] Güney Azərbaycan Konqresi (QAK) ( http://www.guneyazerbaycankonqresi.com/x79.html).
[18] Güney Azərbaycan Demokrat Partiyasının Məramnaməsi (http://www.gadp.org/az/).
[19] Güney Azərbaycan Milli Azadlıq Cəbhəsi–GAMAC (2010). Sevvomin konqere-ye salyane-ye amac (Cebhe-ye azadi-ye Azərbaycan-e Cənubi), (http://www.gamac.info).

göstərən Yeni GAMOH 2012-ci ildə Nizamnaməni, 2013-cü ildə isə təşkilat proqramını qəbul etmişdir. Əsas şüarları türkçülük, modernləşmə (yenilikçilik), fikir azadlığıdır.[20] Uluslararası Güney Azərbaycan Türkləri konseyi (Beynəlxalq Güney Azərbaycan Şurası) Güney Azərbaycanın müstəqilliyini müdafiə edən təşkilatlardan biridir[21], 2012-ci ildə təsis edilmişdir.

7 noyabr 2012-ci ildə AZÖH və GADP-nin birliyi olaraq fəaliyyətə başlayan Cənubi Azərbaycan İttifaqı *(Ettehade Azərbaycane Cənubi)* problemin beynəlmiləlləşdirilməsi, problemin vəziyyəti haqqında dünya ictimaiyyətinə, kiçik idarəetmə orqanlarına, siyasətçilərə, KİV-lərə və s. Güney Azərbaycan haqda məlumat verməyi özünə prioritet müəyyən etmişdir. Birlik üzvləri Avropa Parlamentinin vitse-prezidenti, İranın İnsan Haqları üzrə Xüsusi Müşahidəçi və Məruzəçi cənab Əhməd Şəhidlə, Amerika Birləşmiş Ştatlarının senatorları və konqresmenləri, Avropa Parlamentinin üzvləri və Asiya rəsmiləri ilə 60-dan çox görüş keçirmişlər. Birlik Avropa Parlamentində, YUNESKO agentliklərində, ABŞ-da və s.-də 20-dən çox seminar, konfrans, sərgi və etiraz mitinqləri keçirmiş və onlarda iştirak etmişdir.[22] Azərbaycan Sosial Demokrat Partiyası, Güney Azərbaycan Liberal Demokrat Partiyası kimi siyasi təşkilatlar da öz növbələrində fəaliyyətini davam etdirmiş, öz siyasi baxışlarını ortaya qoymuşlar.[23] Qeyd etmək lazımdır ki, mühacirətdə olan azərbaycanlılar Güney Azərbaycandan kənarda hakimiyyət yaratmaq üçün də ilkin addımlar atmışlar. Belə ki, 2014-cü ildə "Mühacirətdə Müvəqqəti Parlament"in təşkil olunması[24], 2022-ci ilin oktyabr ayının 1-də Türkiyənin paytaxtı Ankara şəhərində "Güney Azərbaycan Müvəqqəti Milli Məclisinin Təşkilat Komitəsi"nin yaradılması[25], 2022-ci ilin oktyabr ayının 2-də isə "Güney Azərbaycan Milli Qurtuluş Hərəkatı"nın təşkili barədə bildiriş yayılması milli fəalların və eləcə də ziyalıların hədəfə çatmaq üçün apardıqları mübarizənin bariz sübutudur.

## Nəticə

Beləliklə, aparılan təhlillərdən də göründüyü kimi, 1978-1979-cu illərdə İran İran İslam Republikasında, o cümlədən Güney Azərbaycanda Pəhləvi şahlıq rejimindən ümumi narazılıqlar fonunda başlayan etirazlar sonradan bir qrupun – dini-klerikal dairələrin ön plana çıxması və yeni

---

[20] Yeni GAMOH (http://www.yenigamoh.com/index.php/sample-sites-).
[21] Uluslararası Güney Azərbaycan Türkləri konseyi[Uluslararası Güney Azərbaycan Türkləri konseyi Ankarada Quruldu (https://www.gunaz.tv/az/xeberler/arxiv/uluslararasi-guney-azerbaycan-turkleri-konseyi).
[22] Qozareşi əz fəaliyyətha-ye Ettehade Azərbaycan-e Cənubi //1392-1396/2013-2017.
[23] Əhzab-e siyasi-ye Azərbaycan xastar bərqozari-ye referendum bəra-ye esteğlal şodənd! (https://www.kabulpress.org/article136820.html).
[24] Aktivisty azeri Irana organizovali Vremennyy parlament v ssylke 18 марта 2014 (http://farsi.alarabiya.net/fa/iran/2014/03/18F.html).
[25] Güney Azərbaycan keçici Milli Məclisi"nin qurulması üçün bir təşəbbüs (https://t.me/ArazNews).

bir rejim qurmaları ilə nəticələnmişdir. Bununla belə baş verən inqilabi proseslərə qoşulan Güney Azərbaycan ziyalılarının siyasi baxışları heç də təkcə məhdud dini-klerikal dairələrin mövqelərinin dəstəklənməsi ilə məhdudlaşmamışdır. Azərbaycan ziyalılarının bir qismi sol siyasi fikrin, bir qismi dini müxalifətin, bir qismi isə tamamilə milli düşüncənin məqsədləri uğrunda bu inqilabi proseslərə qoşulmuş, inqilabdan sonrakı ilk illərdə - hələlik İslam Respublikasının möhkəmlənmədiyi və ictimai-siyasi həyatda dini-klerikal dairələrin əsas təşəbbüsləri hələlik əlinə keçirmədiyi bir dönəmdə milli hüquqlar məsələsinə nisbətən loyal yanaşmış, Güney Azərbaycanda da müəyyən qədər yumşaq davranmaq məcburiyyətində qalmışdır. Lakin tədricən rejimin gerçək mahiyyəti üzə çıxmış, nəinki sol və milli yönlü ziyalılar, hətta Güney Azərbaycandan olan nüfuzlu dindarlar da inqilabın lideri elan edilmiş Ruhullah Xomeyniyə və onun qurduğu rejimə qarşı çıxmışlar. Bununla belə, 1979-cu ildən bu günə İran siyasətində və dini həyatında kifayət qədər böyük nüfuza malik olan Güney Azərbaycanın din xadimləri, siyasi fiqurları fəaliyyət göstərirlər. Azərbaycan əsilli siyasi və ictimai xadimlərin bir qismi çatışmazlıqlara qarşı sistemdaxili müxalifət çərçivəsində mübarizə aparır və bu mübarizəni Güney Azərbaycanın və əhalisinin milli hüquqları ilə əlaqələndirmirlər. Onlar sadəcə siyasi mübarizənin gedişatında Güney Azərbaycan əhalisindən və məsələsindən özlərinin fərdi siyasi mənafeləri naminə istifadə etməyə çalışırlar. Bir qrup Güney Azərbaycan ziyalısı isə tamamilə milli hüquqların müdafiəçisi rolunda çıxış edir, doğma vətənləri üçün siyasi status və müstəqil siyasi gələcək arzulayır, bunun uğrunda mübarizə aparırlar. Onlardan bəziləri mövcud rejimin repressiyalarından canlarını qurtarmaq üçün Azərbaycan, Türkiyə, ABŞ, Kanada, Avstraliya və Avropanın müxtəlif ölkələrinə mühacirətə getmişlər. XX əsrin 80-ci illərinin sonlarından etibarən, İranda siyasi repressiyaların gücləndiyi şəraitdə mübarizə siyasi müstəvidən daha çox milli-mədəni müstəviyə daşınmışdır. Ziyalılar məhdud şəraitdə də olsa, xalqın milli kimliyinin daşıyıcıları olan tarixini, ədəbiyyatını, incəsənətini qorumağa və inkişaf etdirməyə çalışırlar. Milli düşüncənin Güney Azərbaycanda yaşayan böyük xalq kütlələrinə çatdırılması üçün ədəbiyyat və incəsənət əsərlərindən vasitə kimi istifadə edilər. Təhlillər göstərir ki, inqilab qəlbi Azərbaycan eşqi ilə döyünən bir sıra Güney Azərbaycan ziyalılarını hansı istiqamətdə fəaliyyət göstərmələrindən asılı olmayaraq mühacirə çevirmişdir. Onlar nə maddi, nə də mənəvi baxımdan hazırki İran İslam Respublikası cəmiyyətində özlərini reallaşdıra bilməmişlər. Bununla belə, 1978-1979-cu illər inqilabından sonra Güney Azərbaycan ziyalılarının fəaliyyətlərində kifayət qədər yüksək qiymətləndirilməli olan müsbət məqamlar da ortaya çıxmışdır. Bütün təzyiqlərə, repressiyalara və mühacir həyatına baxmayaraq, Güney Azərbaycan ziyalıları bir sıra təşkilatlarda birləşməyi, yeni təşkilatlar formalaşdırmağı bacarmışlar.

**Ədəbiyyatın siyahısı**

Abrahamian, E. (1989). *Radical Islam: The Iranian Mojahedin*. Tauris.

Bayramzadə, S. Z. (1991). İran hakim dairələrinin Cənubi Azərbaycan maarifi və mədəniyyəti sahəsindəki siyasəti (1947-1978-ci illəri. *Cənubi Azərbaycan tarixi məsələləri*, 2-ci nəşri. Elm.

Gülkaç, D. (2019). *Günümüzde Güney Azerbaycan'da mühalif hareketler* [Yüksek lisans tezi, İstanbul Üniversitesi]. Yök Tez.

Məmmədli, P.H. (2015). *Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər*. Sabah.

Məmmədova, P.H. (2002). *Cənubi Azərbaycanda milli-mətbuat və ədəbi fikrin inkişaf mərhələləri (1978-1979-cu illər İran inqilabından sonrakı dövr).* [Filologiya elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyasının avtoreferatı]. Azərbaycan Milli Elmlər Akademiyası.

Özdemir, S. (2020). Güney Azerbaycan meselesi: Tarihi ve kültürel boyutu. *Tarih ve Günce*, (7), 359-386.

Pearson, E. (2011). Mujahideen-e-Khalq Organization. Second Edition. In Martin, G. (ed.). *The SAGE Encyclopedia of Terrorism.* Sage Publications.

Tağıyeva, Ş., Rəhimli (Bije), Ə. ve Bayramzadə, S. (2000). *Güney Azərbaycan (məlumat kitabı).* Orxan NPE.

Quluncu, Ə. Ərdəbil məhkəməsi Abbas Lisanini "sekular rejim" təbliğatında günahlandırır: Voice of America, 17 Aprel, 2015. https://web.archive.org/web/20210420062925/https://www.amerikaninsesi.org/a/er

Məhəmmədtağı, Zehtabi (Kirişçi) və onun Iran türklərinin əski tarixi kitabı: Respublika qəzeti, – 02 mart, 2023. https://respublika-news.az/news/1675406629-mehemmedtagi-zehtabi-kirisci-ve-onun-iran-turklerinin-eski-tarixi-kitabi

Azərbaycan Milli Cəbhəsinin Əsasnaməsi (AMC).http://aznf.org/onewebmedia/esasname.pdf

Güney Azərbaycan İstiqlal Partiyası (GAİP), 2003. http://gaip.biz/index.php/81-x-b-rl-r/83-2013-05-26-15-26-01

Güney Azərbaycan Milli Birlik Şurasının geçici Əsasnaməsi http://www.millishura.com/images/pdf/ms_Esasname.pdf

Azərbaycan Öyrənci Hərəkatı-AZÖH" AЗОХ// http://www.azoh.net/

Azərbaycan Federal-Demokrat Hərəkatı'nın Platformu (2005) //http://www.achiq.org/herekat3/platform%20turkce%20L.htm

Güney Azərbaycan Konqresi (QAK) http://www.guneyazerbaycankonqresi.com/x79.

Güney Azərbaycan demokrat partiyasının Məramnaməsi. http://www.gadp.org/az/

Güney Azərbaycan Milli Azadlıq Cəbhəsi–GAMAC (2010). Sevvomin konqere-ye salyane-ye amac http://www.gamac.info/

Yeni GAMOH http://www.yenigamoh.com/index.php/sample-sites-2

Güney Azərbaycan keçici Milli Məclisi"nin qurulması üçün bir təşəbbüs. https://t.me/ArazNews/74454

İran'daki Azerbaycan Türklerinin protestoları: [Elektronik kaynak] / Timetürk, 2015. www.timeturk.com/iran-dakiazerbaycan-turklerinin-protestolari/haber-88044

Uluslararası Güney Azərbaycan Türkləri konseyi [Uluslararası Güney Azərbaycan Türkləri konseyi Ankarada Quruldu https://www.gunaz.tv/az/xeberler/arxiv

https://www.refworld.org/docid

Ələkbərli, F. Molla. Ariyançı İran dövrü və Güney Azərbaycan Milli Hərəkatı - II Yazı: Moderator, –17 avqust, 2021. https://moderator.az/siyaset/390112/molla-ariyanci.

Məhəmmədtağı, Z. (Kirişçi) və onun Iran türklərinin əski tarixi kitabı: Respublika qəzeti, https://respublika-news.az/news/1675406629-mehemmedtagi-zehtabi.

Azərbaycanlıların kütləvi həbsi başlayıb Qafqazinfo, 2011. https://qafqazinfo.az/news/detail/azerbaycanlilarin-kutlevi-hebsi.

Quluncu, Ə. Ərdəbil məhkəməsi Abbas Lisanini "sekular rejim" təbliğatında günahlandırır: Voice of America, 17 Aprel, 2015. https://web.archive.org/web/20210420062925/https://www.amerikaninsesi.org/a/er

Əhməd Obalı: İran Ermənistanın məğlubiyyətini həzm edə bilmir.18 aprel, 2023. https://apa.az/guney-azerbaycan/ehmed-obali-iran-ermenistanin-meglubiyyetini-
İranda türk dilində kitabların yandırılmasının 67-ci ildönümü qeyd edilib:DAK, 2023. http://www.dakaz.org/index.php?haber_id=1349.

Dünya Azərbaycanlıları Konqresinin Nizamnaməsi. http://www.dakaz.org/141-Nizamname.html

http://atc.az/index.php?newsid=1221//

http://atc.az/index.php?newsid=1221//

http://farsi.alarabiya.net/fa/iran/2014/03/18F.html

https://qafqaz.ir/fa/شعری-بیار-زیبا-و-پر-نغز-از-شهریار-خطاب-ب/

https://www.kabulpress.org/article136820.html\\